# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 107 (21.008)

7 iyun 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik




*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Azərbaycanın özü qədər əbədi

## Qayıdışdan qurtuluşa

### *Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı Azərbaycanın qurtuluşunun başlanğıc günüdür*

***Xalqların qarşıya qoyduğu konkret hədəflərə doğru irəliləməsi prosesində milli dövlətin mövcudluğu vacib şərtlərdən biridir. Milli dövlətə mənsubluq hər bir millətin nəyə qadir olduğunu, keçdiyi şərəfli mübarizə yolunu və dünya dövlətləri sırasında layiqli yer tutmaq əzmini nümayiş etdirir. Vahid təsərrüfat sisteminə, dilə, dinə, adət-ənənə və dəyərlər sisteminə xas insanlar qrupu tarixən konkret ərazi hüdudlarında milli dövlətlərini yaratmaq idealı ilə yaşamış, fəqət bu, heç də hamıya nəsib olmamışdır.***

70 il imperiya əsarətində qalmış Azərbaycan xalqı daim müstəqilliyini bərpa etmək arzusu ilə yaşasa da, obyektiv səbəblərdən bu niyyətini yalnız ötən əsrin sonlarına doğru gerçəkləşdirmək şansı qazandı. Keçmiş ittifaqın süqutu zəminində cərəyan edən müəyyən proseslər xalqın öz hüquqları uğrunda fəal mücadiləyə qalxmasına və nəticədə, 1991-ci ilin 18 oktyabrında müstəqilliyini bərpa etməsinə imkan yaratdı.

Müstəqilliyini qanı, canı bahasına bərpa etmiş müdrik xalqımızın 1991-ci ildən 1993-cü ilin iyun ayınadək böyük sarsıntı və fəlakətləri öz taleyində yaşamaq məcburiyyətində qalması, ümumilikdə, dövlətin özünün gələcəyinin sual altında olması ilə şərtlənirdi. Müstəqilliyin ilk illərində xalqın iradəsinə zidd şəkildə iqtidara yiyələnən, dövlətçilik və siyasi idarəçiliklə bağlı baxışları son dərəcədə primitiv məlum qüvvələr faktiki olaraq Azərbaycanı taleyin ümidinə buraxmışdılar. Üstəlik, hakimiyyət uğrunda mübarizənin qanunsuz silahlı qruplaşmalar səviyyəsində aparılması ölkədəki siyasi, iqtisadi və mənəvi böhranı daha da dərinləşdirir, bədxah xarici qüvvələrin təsiri ilə etnik-milli münasibətlərin qızışdırılmasına, separatizm meyillərinə rəvac verir, vətəndaş müharibəsinə, bir növ, zəmin hazırlayırdı.

Dövlət idarəçiliyindəki kobud səhvlərin məntiqi nəticəsi olaraq, ağır sosial-iqtisadi gərginliyin son həddə çatdığı, ölkənin vətəndaş müharibəsi ilə üz-üzə qaldığı, torpaqlarımızın itirildiyi, Azərbaycanın məhv olmaq ərəfəsində olduğu bir dövrdə xalqımızın ulu öndər Heydər Əliyevə üz tutması təsadüfi deyildi. Çünki hamı yaxşı anlayırdı ki, Azərbaycanı düşdüyü ağır vəziyyətdən yalnız ümummilli lider Heydər Əliyev xilas edə bilər. Ulu öndərimiz o dövrün Azərbaycanını belə xarakterizə edirdi: ***“1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycan ərazisinin, demək olar ki, yarıdan çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər”.***

Vətənin dar günü idi. Xalq çıxılmaz vəziyyətə düşmüşdü. İnsanlar üzünü görkəmli dövlət xadimi Heydər Əliyevə tutub nicatımızın yalnız onunla bağlı olduğunu bildirirdilər. Getdikcə bu axın güclənir və iri bir hərəkata çevrilirdi.

Vətəni, ölkəni düşdüyü ağır vəziyyətdən qurtarmaq üçün üzünü o vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən dahi rəhbər Heydər Əliyevə tutmuş Azərbaycan ziyalılarının müraciətində deyilirdi: *“Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə, ilk addım olaraq bunu bir qrup ziyalılar adından biz edirik. Biz həm öz adımızdan, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir”.*

Azərbaycanı müstəqilliyə hazırlayan görkəmli dövlət xadimi Heydər Əliyev belə bir vəziyyəti kənardan seyr edə, xalqın çağırışına, tələbinə biganə qala bilməzdi. 1993-cü il iyun ayının 9-da xalqımızın böyük oğlu Heydər Əliyev Naxçıvandan Bakıya qayıtdı.



Dövlətçiliyimizin müqəddəratının həll olunduğu belə bir məqamda dahi öndərin Bakıya qayıdışı respublika əhalisində böyük ümidlər yaratdı. Çünki ölkəni çətin vəziyyətdən ancaq Heydər Əliyev dühasının xilas edəcəyinə hamı qəlbən inanırdı.

Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya qayıdışı və 6 gün sonra Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin başlanğıcı qoyulmuşdur. İyunun 15-i müstəqillik tariximizə “Milli Qurtuluş Günü” kimi daxil olmuşdur. Ümummilli liderimizin müdrik xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən qurtulmuşdur.

1993-cü ilin iyun ayını Azərbaycan dövlətçiliyi tarixində dönüş nöqtəsi kimi xarakterizə etmək olar. Belə bir vaxtda xalqın tələbi, o vaxt hakimiyyətdə olanların xahişi ilə Bakıya gələn dahi rəhbər Heydər Əliyev respublikanı düşdüyü iflic vəziyyətdən, məhvolma təhlükəsindən xilas etmişdir.

İyunun 4-dən başlayaraq cərəyan etmiş hadisələrin mahiyyətini təhlil edərkən, vəziyyətin son dərəcə idarəolunmaz hala düşdüyünü göz önünə gətirərkən o dövrkü hakimiyyətin tam səriştəsizliyi, bacarıqsızlığı, qətiyyətsizliyi açıq-aydın görünür. İyun hadisələri öz mahiyyətinə görə qiyam, çevriliş, vətəndaş qarşıdurması, sui-qəsd kimi hadisələrlə səciyyələndirilə bilər. Ancaq ən dəhşətlisi o idi ki, Azərbaycan yenicə qazandığı müstəqilliyini itirmək təhlükəsi qarşısında idi.

Dövr, zaman xalqımızı imtahana, sınağa çəkmişdi. Hadisələrin gedişindən özünü itirən o vaxtkı iqtidar nümayəndələri isə bu sınağın ağırlığı altında, əsl mənada, çabalayırdılar. Belə bir vəziyyətdə xalqın etimadını tamamilə itirdiklərini görən AXC-Müsavat liderləri qəribə bəyanatlarla çıxış edirdilər. Onların “Xalqın 95 faizi tələb etsə də, biz hakimiyyətdən getməyəcəyik”, “Biz hakimiyyətə qan gücünə gəlmişik, qanla da gedəcəyik” kimi xalqın, Vətənin suverenliyinə zidd olan “şüarları” hələ də qulaqlarımızdadır. Dövlətçilik, müstəqillik, xalqın mənafeyi məsələləri büsbütün unudulmuşdu...

Hamı görürdü ki, artıq o vaxtkı iqtidar ölkəni idarə edə bilmir, qiyamçılar qarşısında tam acizlik nümayiş etdirir. Qiyamçılar Bakıya doğru irəliləyir, yol boyu rayonlarda yerli hakimiyyət nümayəndələrini dəyişdirirdilər. Xalq çaşqınlıq, qorxu, təşviş içində idi.

Azərbaycan Respublikası Ali Sovetinin 1993-cü il iyunun 13-də keçirilmiş sessiyasında çıxış edən müdrik şəxsiyyət Heydər Əliyev bir daha güc işlədilməməsini, bir daha silahların işə salınmamasını təkidlə tələb etmişdir. Ulu öndərimiz çıxış yolunu yalnız danışıqlarda, qarşılıqlı anlaşma, sülh və barışıqda görürdü. ulu öndər öz məramını, məqsədini bütün ölkəyə və dünyaya bəyan etmişdi: ***“Mənim həyatım və fəaliyyətim yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına həsr olunacaqdır. Mənim başqa məqsədim, amalım yoxdur”***.

Qısa müddətdə xalqımızın böyük oğlu Heydər Əliyev bütün hadisələrə nəzarət etməklə hər şeyi öz axarına yönəltmişdir. Xalq əmin idi ki, dahi rəhbər Heydər Əliyev Azərbaycanı düşdüyü bu vəziyyətdən qurtaracaq, ölkəmizi parçalanmaqdan, dövlətimizi məhv olmaqdan xilas edəcək.

Dahi rəhbərin yenidən hakimiyyətə qayıdışından sonra sabitlik təmin olunmuş, xalq normal yaşayış tərzinə qayıtmış, ölkə daxilində separatçı fəaliyyətlərə son qoyulmuş, vətəndaş müharibəsinin qarşısı alınmışdır.

İyun hadisələrini hər dəfə xatırlayanda bir həqiqəti dərindən dərk edirsən ki, əgər bu hadisələrin qarşısı alınmasaydı, saysız-hesabsız qardaş qanı axıdılacaq, günahsız insanlar həlak olacaqdı; şəhərlər, kəndlər, qəsəbələr dağılacaqdı; Azərbaycan öz dövlətçiliyini itirəcəkdi, parçalanacaqdı.

Ümummilli liderimiz haqlı olaraq deyirdi: ***“Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz”.***

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi xilaskarlıq missiyası nəticəsində Azərbaycan məhvolma təhlükəsindən qurtulmuş, Milli Ordu yaradılmış, atəşkəs elan olunmuş, ölkəmiz sürətli inkişaf yoluna çıxmışdır. Xalqımızın azad, suveren və müstəqil dövlət yaratmaq arzusu həqiqətə çevrilmişdir.

Qazanılan müstəqilliyin əbədi olmasına çalışan, bunun üçün var qüvvəsini dövlətimizin inkişaf və tərəqqisinə sərf edən görkəmli dövlət xadimi Heydər Əliyev deyirdi: ***“Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim əvvəldən qəbul etdiyimiz prinsiplərdir”.***

Azərbaycana ikinci rəhbərliyi dövründə cəmi on il müddətində ümummilli liderimiz neçə-neçə qərinəyə sığmayan, dünya durduqca dəyərini itirməyən nəhəng və son dərəcə böyük işlər görmüşdür. Hələ bu tarixi və şərəfli mərhələnin başlanğıcında

Qısa müddətdə Azərbaycanda görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə əsaslı dönüş baş vermişdir; dağılmış iqtisadiyyat bərpa olunmuş, yeni-yeni müəssisələr işə salınmış, yüz minlərlə iş yeri yaradılmış, “Əsrin müqaviləsi” adlanan nəhəng neft müqaviləsi imzalanmışdır. Azərbaycanın milli sərvətləri xalqımızın rifah halının yaxşılaşdırılmasına yönəldilmiş, ölkədə vətəndaş həmrəyliyi, siyasi sabitlik, qanunların aliliyinə əsaslanan hüquqi-demokratik idarəçilik sistemi bərqərar olunmuş, qabaqcıl dünya təcrübəsinin ən yaxşı nailiyyətlərini özündə cəmləşdirən Konstitusiya qəbul edilmiş, azad və şəffaf seçkilərin keçirilməsi təmin edilmiş, sosial-mədəni həyatın bütün sahələri əsl inkişafa qovuşmuşdur. Bütün bunların müqabilində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi, haqq səsinin dünyaya çatdırılması, xaricdə yaşayan azərbaycanlılarla davamlı əlaqələrin qurulması istiqamətində də möhtəşəm tədbirlər həyata keçirilmişdir. Bir sözlə, 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyev Azərbaycanı Azərbaycana qaytarmış, müstəqilliyimizin əsl xilaskarı, hər bir vətəndaşın böyük qayğıkeşi, hamisi kimi hələ sağlığında xalqın qəlbində heykəlləşmiş, əbədiləşmişdir.

Keçilmiş yola nəzər salanda Heydər Əliyev dühasına ancaq qibtə və pərəstiş edirik. Onun həyata keçirdiyi möhtəşəm tədbirlər, Vətən və xalq naminə gördüyü misilsiz işlər neçə-neçə qərinəyə, əsrə bərabərdir. Bu gün müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi, siyasi, mədəni həyatın bütün sahələrində uğur qazanılır, ulu məmləkətimiz gündən-günə inkişaf edir. Yüksələn Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımız bu böyük tərəqqinin daha geniş və parlaq müşahidə olunduğu məkandır. Blokada şəraitində olsa da, Naxçıvan yaşayır, sürətlə inkişaf edir. Bütün bunlar zamanın dahisi, böyük xilaskar Heydər Əliyev siyasətinin təntənəsidir. Müstəqil Azərbaycanın bu gün əldə etdiyi bütün uğurlara görə xalqımız ulu öndərimizin 1993-cü ildə Naxçıvandan Bakıya, ali hakimiyyətə qayıdışına, Milli Qurtuluş Gününə borcludur!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“...Xilasımız və inkişafımız ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-iqtisadi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur”.***

Ulu öndər Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycan daha böyük uğurlara imza atacaq. Çünki bu dövlətə Heydər Əliyev ideyalarının, siyasi kursunun layiqli davamçısı və hər bir Azərbaycan vətəndaşının Prezidenti olan cənab İlham Əliyev başçılıq edir.

***Son 11 ildə ölkədə həyata keçirilən effektiv iqtisadi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən dövlət başçısı cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədləri səylə, ardıcıl və sistemli surətdə yerinə yetirmişdir. Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır.***


**Məmməd RZAYEV**
*fəlsəfə elmləri doktoru, professor*

## Heydər Əliyev Universitetinin növbəti məşğələsi



***Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin dünən "Heydər Əliyev və Azərbaycan" mövzusuna həsr olunmuş növbəti məşğələsi keçirilib.***

Milli Qurtuluş Günü ərəfəsində keçirilən məşğələni giriş sözü ilə universitetin rektoru, professor Saleh Məhərrəmov açaraq ümummilli liderimiz Heydər Əliyevin keçdiyi şərəfli həyat yolundan, siyasi fəaliyyətindən, Azərbaycan üçün göstərdiyi misilsiz xidmətlərdən söz açıb. Rektor qeyd edib ki, ulu öndər Heydər Əliyevin ölkədə ali hakimiyyətə qayıdışı günü tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olub. Milli Məclisin 1997-ci il 27 iyun tarixli qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı günü rəsmi olaraq Milli Qurtuluş Günü elan edilib. Azərbaycanın işıqlı gələcəyinin təməlinin qoyulduğu 15 iyun tarixi əsl qurtuluş günü, xalqımızın fəlakətlərdən xilas olub qüdrətli bir dövlətin bünövrəsinin qoyulduğu gün kimi müasir tariximizə qızıl hərflərlə yazılıb.

Universitetin Tarix-filologiya fakültəsinin dekan müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Rəsul Bağırov mövzu ilə bağlı məruzə edib. Məruzəçi bildirib ki, Heydər Əliyev idarəçilik fəlsəfəsinin əsas ideya-siyasi istiqamətini xalqın tarixi yaddaşının bərpası, sürətli inkişaf strategiyasının gerçəkləşməsi kimi mühüm amillər təşkil edir.

Rəsul Bağırov qeyd edib ki, Naxçıvanda ulu öndərin rəhbərliyi ilə ölkə əhəmiyyətli qərarlar qəbul edildiyi bir vaxtda Azərbaycanın digər bölgələrində bunun əksi olan proseslər – siyasi hərcmərclik, özbaşınalıq, vətəndaş müharibəsi baş qaldırmışdı. Ölkəmizin məhvə sürükləndiyi belə bir vaxtda xalq yeganə ümid və xilas yolunu Naxçıvandan başlanan qurtuluşda – ümummilli liderimizin böyük siyasətə qayıdışında tapdı. 1993-cü ilin iyununda dahi şəxsiyyət Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan düşdüyü bəlalardan qurtula bildi. Bu qayıdış yenicə müstəqillik qazanmış bir dövlətin müqəddəratını həll edən, onu inkişaf və tərəqqi yoluna çıxaran siyasi xəttin başlanğıcı, itirilmiş inamın geri qaytarılması idi.

## Naxçıvan Biznes Mərkəzində sahibkarlarla görüş keçirilmişdir



***Dünən Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi və Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun mahiyyəti ilə bağlı sahibkarlarla görüş keçirilmişdir. Görüşü Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Mircavid Tağızadə açaraq muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyindən danışmışdır.***

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik şöbəsinin rəisi, ədliyyə müşaviri Ayaz Məhərrəmovun "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun mahiyyəti", İqtisadiyyat və Sənaye Nazirliyinin sektor müdiri Aysel Qədirzadənin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların normativ-hüquqi aktların tələblərinə uyğun tənzimlənməsi istiqamətində görülmüş və görüləcək işlər", Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat bölməsinin baş məsləhətçisi, kiçik ədliyyə müşaviri Səyyub Kərimovun "Sahibkarlıq sahəsində aparılan yoxlamaların qeydiyyatı" mövzularında məruzələri dinlənilmişdir.

Məruzələrdə bildirilmişdir ki, müstəqilliyin bərpasından sonra sahibkarlığın inkişaf perspektivləri geniş müzakirə olunmuş, iqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi məqsədilə beynəlxalq tələblərə uyğun qanunvericilik bazası yaradılmışdır. Sahibkarlıq fəaliyyətinin qanunvericiliklə tənzimlənməsi ölkəmizdə sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və vəzifələrini, sahibkarların dövlət orqanları ilə qarşılıqlı münasibətlərini müəyyənləşdirməklə bu sahənin inkişafına əlverişli imkanlar yaratmışdır. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2011-ci il 18 fevral tarixli Fərman imzalamış və 2011-ci ilin may ayından etibarən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində sahibkarlıq sahəsində aparılan yoxlamaların məlumat reyestri fəaliyyətə başlamışdır. Həmin fərman istehlakçıların hüquqlarının qorunması məqsədilə aparılan yoxlamaların müasir standartlara uyğun olaraq tənzimlənməsinə, onların səmərəliliyinin yüksəldilməsinə, yoxlamalar zamanı şəffaflığın təmin edilməsinə və yol verilə biləcək suiistifadə hallarının qarşısının alınmasına yönəlmişdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

## "Beynəlxalq münasibətlərdə Naxçıvan və müasir dövrdə inkişaf prosesləri" mövzusunda beynəlxalq elmi konfransda bu qədim diyarın tarixindən söhbət açılmışdır

***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) əsas binasında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş "Beynəlxalq münasibətlərdə Naxçıvan və müasir dövrdə inkişaf prosesləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir.***

AMEA-dan AzərTAc-a bildirmişlər ki, tədbir iştirakçıları əvvəlcə foyedə akademiyanın Mərkəzi Elmi Kitabxanası tərəfindən təşkil edilmiş kitab sərgisi ilə tanış olmuş və bu qədim diyarın müxtəlif tarixi mərhələlərini əks etdirən videogörüntüləri seyr etmişlər.

Konfransı giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə Naxçıvan Muxtar Respublikasının tarixi, mədəniyyəti, elmi və müasir inkişafı haqqında ətraflı məlumat vermişdir. Akademik bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Prezident İlham Əliyevin 2014-cü il 14 yanvar tarixli Sərəncamına əsasən, ölkəmizdə keçirilən yubiley tədbirləri geniş mənada Azərbaycanda milli dövlətçilik təfəkkürünün, ərazi bütövlüyü düşüncəsinin daha da dərinləşməsinə və möhkəmləndirilməsinə uğurla xidmət edən mükəmməl bir dövlət siyasətini özündə cəmləşdirir. Akif Əlizadə bütün tarix boyu Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuş Naxçıvan diyarının ölkəmizə ümummilli lider Heydər Əliyev kimi böyük dövlət xadimi bəxş etdiyini xüsusi vurğulamışdır.

Akademiyanın rəhbəri bu torpağın Əcəmi Naxçıvani kimi dahi memar, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi səviyyəsində qüdrətli ədiblər, Nəsirəddin Tusi, Nəcməddin Naxçıvani, Məhəmməd ibn Hinduşah Naxçıvani, Yusif Məmmədəliyev, Həsən Abdullayev, Məmməd Cəfər Cəfərov, Möhbalı Qasımov, Abbas Zamanov kimi alimlər də yetişdirdiyini, Azərbaycanda dövlətçiliyin, elmin və ictimai fikrin inkişafında qədim diyarın böyük xidmətləri olduğunu diqqətə çatdırmışdır.

Akademik Akif Əlizadə bu gün ölkəmizin digər bölgələri kimi, muxtar respublikanın da sürətlə inkişaf etdiyini xüsusi vurğulamışdır.



Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli "Naxçıvanın muxtariyyət statusu əldə etməsi Azərbaycan dövlətçiliyinin nailiyyəti kimi" mövzusunda məruzə etmişdir. Bildirilmişdir ki, Azərbaycan dövlətçiliyi tarixində Naxçıvanın xüsusi yeri vardır. Naxçıvan tarixin ən müxtəlif dövrlərində, minilliklər boyu Azərbaycanın cənub-qərb ərazilərinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi uğrunda həmişə mübarizə aparmışdır.

Akademik İsa Həbibbəyli qeyd etmişdir ki, 1918-ci ildə qurulan Araz Türk Respublikası bu diyarın muxtar respublika statusu qazanmasına zəmin yaratmışdır. Ötən əsrin əvvəllərində Nəriman Nərimanovun, Behbud ağa Şahtaxtinskinin, Kazım Qarabəkir Paşanın və başqalarının böyük xidmətlərini xatırladan vitse-prezident bildirmişdir ki, Naxçıvan misilsiz tarixi nailiyyətlərə imza atmışdır.

Müasir dövrdə ulu öndər Heydər Əliyevin dönməz iradəsi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında üçrəngli bayrağın Azərbaycanın dövlət rəmzi kimi qəbul edilməsinin ölkəmizdə müstəqil dövlətçiliyə misilsiz tarixi xidmətin ifadəsi olduğunu diqqətə çatdıran akademik Naxçıvan Muxtar Respublikasının yaranmasının və keçdiyi şərəfli yolun Azərbaycan dövlətçiliyinin tarixi nailiyyəti olduğunu bildirmişdir.

İsa Həbibbəyli Naxçıvanı möhtəşəm Yeni Azərbaycanın parlaq bir əsəri kimi səciyyələndirmiş, bu gün ölkə rəhbərliyinin diqqət və qayğısı, muxtar respublika rəhbərliyinin yorulmaz fəaliyyəti nəticəsində daha da inkişaf etdiyini qeyd etmişdir.

Sonra Ərzurum Universitetinin Tarix bölümünün müdiri, professor Yavuz Aslanın "Qars müqaviləsi və Naxçıvanın muxtariyyət məsələsi", rusiyalı professor Yuri Kuznetsovun "Rusiya mənbələrində və Moskva müqaviləsində Naxçıvan", AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Naxçıvan Muxtar Respublikası müstəqillik dövründə", AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın müxbir üzvü Teymur Kərimlinin "Naxçıvan ədəbi mühiti: tarix və müasirlik" mövzularında məruzələri dinlənilmişdir.

Konfransda Behbud ağa Şahtaxtinski nəslinin davamçısı, görkəmli diplomat Aleksis Şahtaxtinski və Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyi rəhbərinin müavini Bəxtiyar Əsgərov çıxış edərək muxtar respublikanın müasir inkişaf yolundan danışmışlar.

Tədbiri yekunlaşdıran akademik İsa Həbibbəyli Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə çapa hazırlanan məqalələr toplusunun yubileyə sanballı töhfə olacağını diqqətə çatdırmışdır.

Konfransda Milli Məclisin deputatları, Türkiyə və Rusiyadan olan tarixçi alimlər, elmi ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının müxtəlif tarixi mərhələlərini əks etdirən slaydlar nümayiş etdirilmişdir.

## AMEA-nın Mərkəzi Elmi Kitabxanası Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş sərgi təşkil etmişdir



***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyəti Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr edilmiş "Beynəlxalq münasibətlərdə Naxçıvan və müasir dövrdə inkişaf prosesləri" mövzusunda Beynəlxalq elmi konfrans keçirmişdir.***

Bu münasibətlə AMEA-nın Mərkəzi Elmi Kitabxanası geniş ədəbiyyat sərgisi təşkil etmişdir.

Kitabxanadan AzərTAc-a bildirmişlər ki, sərgidə Azərbaycan və xarici dillərdə 1200-dən çox ədəbiyyat nümayiş olunmuşdur.

Sərginin müvafiq bölmələrində Naxçıvanın tarixi, ədəbiyyatı, iqtisadiyyatı, mədəniyyəti, elmi, maarifi və digər sahələr yer almışdır. "Azərbaycan elminin inkişafında Naxçıvan" adlı bölmədə Naxçıvanda yaşayıb-yaradan alimlərin əsərləri konfrans iştirakçılarına təqdim olunmuşdur. Həmçinin Naxçıvana aid ədəbiyyatların virtual görüntüləri, fotoşəkillər və muxtar respublika haqqında sənədli film də nümayiş etdirilmişdir.

Konfransda iştirak edən AMEA-nın prezidenti, akademik Akif Əlizadə, bu elmi müəssisənin vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, akademiyanın müxbir üzvü Teymur Kərimli, Ərzurum Universitetinin Tarix bölümünün müdiri, professor Yavuz Aslan, rusiyalı professor Yuri Kuznetsov, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyi rəhbərinin müavini Bəxtiyar Əsgərov və digər qonaqlar sərgi ilə yaxından tanış olmuşlar.

Sərgi konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanmış və onlar yubiley tədbirinin əyaniliyinə səbəb olan belə bir sərginin təşkilinə görə Mərkəzi Elmi Kitabxananın rəhbərliyinə və əməkdaşlarına öz minnətdarlıqlarını bildirmişlər.

## "Muxtariyyət ili"nə həsr olunan tədbir

***Naxçıvan Muxtar Respublikası Texniki Yaradıcılıq Mərkəzində muxtar respublikanın yaradılmasının 90 illiyi ilə əlaqədar tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə mərkəzin direktoru Sevinc Mirzəyeva açaraq Azərbaycanın ən yeni tarixində Naxçıvanın yeri və rolu haqqında danışmışdır.***

Sonra mərkəzin müəllimlərindən Lalə Qəmbərovanın, Məmləkət Bağırovanın məruzələri dinlənilmişdir. Məruzələrdə qeyd olunmuşdur ki, Naxçıvanın əlverişli təbii-coğrafi mövqeyi, Şərqlə Qərbi birləşdirən qədim İpək Yolunun üzərində yerləşməsi onu fatehlərin, böyük dövlətlərin geosiyasi maraqlarının kəsişdiyi regiona çevirmişdir. Ərazisi dəfələrlə müharibə meydanına çevrilsə də, Naxçıvan heç zaman əyilməmiş, xalqımıza məxsus mədəniyyəti, adət-ənənələri, ən vacibi isə tarixi ərazisini qoruyub saxlamışdır.

Bildirilmişdir ki, ötən əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni daşnakları Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüş, bu diyarı Ermənistana birləşdirmək üçün bütün vasitələrə əl atmışlar. Bölgə əhalisinin inadlı müqaviməti nəticəsində Naxçıvan Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış və son nəticədə, ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Beynəlxalq Moskva və Qars müqavilələri Naxçıvan diyarının tarixi taleyini, onun Azərbaycanın tərkibində muxtar respublika kimi qalmaq imkanını reallaşdırmışdır.

Vurğulanmışdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublika müxtəlif çətinliklərə düçar olsa da, xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin siyasi fəaliyyəti nəticəsində Naxçıvan bu vəziyyətdən çıxa bilmiş və bugünkü dinamik inkişaf yoluna qədəm qoymuşdur. Blokadanın çətinliklərinə baxmayaraq, son 18 ildə muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilmiş, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunmuşdur.

Sonda Naxçıvanın muxtariyyət tarixindən bəhs edən sənədli film nümayiş etdirilmişdir.

**Xəbərlər şöbəsi**



# Tikinti olan yerdə inkişaf var, tərəqqi var...

***Bir regionun və ya bölgənin sosial-iqtisadi inkişafı həyata keçirilən quruculuq tədbirlərinin miqyası ilə də ölçülür. Bu gün kiməsə sübut etməyə ehtiyac yoxdur ki, tikinti olan yerdə inkişaf var, tərəqqi var. Bunu belə başa düşmək olar: cəmiyyət inkişaf etdikcə, yeni ehtiyacların sayı da çoxalır və nəticədə, tələblərin təmin olunması mövcud və ya yeni infrastrukturun daha müasir şəkildə qurulmasını zəruri edir. Ona görə də muxtar respublikada geniş şəkildə aparılan quruculuq tədbirləri uğurla davam etdirilir. Təyinatından asılı olmayaraq, bu gün muxtar respublikamızda həyata vəsiqə qazanan hər bir tikili insanların rahat işləyib-yaşamaq haqqının qorunmasına hesablanıb. Artıq 19 ilə yaxın bir dövr ərzində burada tikilən və yenidən qurularaq istifadəyə verilən yüzlərlə obyekt regionun yeni quruculuq xəritəsini gözlərimiz önündə bir daha canlandırır. Bu xəritənin miqyası isə elə muxtariyyətinin 90-cı ildönümünü qeyd edən Naxçıvan Muxtar Respublikasının fiziki xəritəsi ilə eynilik təşkil edir.***





Bəli, muxtar respublikamızın infrastruktur gözəlliyinə yeni çalarlar qatan yeni tikililər diyarımızın bütün bölgələrini əhatə edir. Bir zamanlar ucqar kənd yaşayış məntəqələrinə, sadəcə, torpaq yollar uzanırdısa, indi həmin məntəqələrə rahat yollarla bərabər, qaz, elektrik, müasir rabitə xətləri də uzanır. Ucqarlardan təbii nemətlərin, mərkəzdən isə müasir kommunikasiyaların axdığı bu yollar kəndlə şəhər arasındakı məsafələri təkcə fiziki baxımdan deyil, həm də mənən yaxınlaşdırır. Getdikcə insanların təbiətə daha yaxın olmaq istəyi də (kənddə yaşamaq, istirahət etmək) məhz buradan qaynaqlanır.

Qeyd etdiyimiz kimi, muxtar respublikamızın quruculuq xəritəsində hər bölgənin öz payı var. Belə bölgələrdən biri də adı qədim, yaşı isə gənc olan Kəngərli rayonudur. Kəngərli rayonu cəmi 10 il bundan əvvəl yaradılıb: həm də, necə deyərlər, çöllük bir ərazidə. Ancaq burada görülmüş işləri on ilə sığışdırmaq mümkün deyil. Çünki rayon mərkəzi yaratmaq, adi bir bina tikmək deyil ki, qısa bir müddət ərzində istəyinə nail olasan. Ancaq Heydər Əliyev quruculuq siyasətinin inamla və uğurla davam etdirilməsi bu qədim Kəngərli yurdunda arzuların reallığa çevrilməsinə imkan verib. Bir qəsəbə və 10 kəndi özündə birləşdirən Kəngərli rayonunda ötən illər ərzində geniş həcmdə quruculuq tədbirləri həyata keçirilib. Əsaslı və kompleks şəkildə aparılan tikinti-quruculuq tədbirlərinin nəticəsidir ki, rayon mərkəzi Qıvraq qəsəbəsi tamamilə öz simasını dəyişib. Bir-birindən gözəl inzibati binalar, mədəniyyət və istirahət parkı, gözəl memarlıq quruluşuna malik mədəniyyət evi qəsəbənin simasına gözəllik qatır. Rayonun Yurdçu kəndi istisna olmaqla, bütün yaşayış məntəqələrində kənd mərkəzləri tikilərək istifadəyə verilib. Rayon mərkəzi Qıvraq qəsəbəsi də daxil olmaqla bütün kəndarası yollar yenidən qurulub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin cari ildə Naxçıvana növbəti səfəri zamanı burada daha bir obyekt – Kəngərli Rayon Mərkəzi Xəstəxanasının yenidən qurulan binası istifadəyə verilib. Üçmərtəbəli xəstəxana binasında müayinə və müalicə üçün hərtərəfli şərait yaradılıb, xəstəxana müasir tibbi avadanlıqlarla təmin olunub. Qeyd edək ki, quruculuq tədbirləri bununla yekunlaşmır. Hazırda rayonda bir neçə obyektin tikintisi və ya yenidən qurulması davam etdirilir.

Muxtar respublikamızda idman infrastrukturunun yaradılmasına göstərilən diqqətin nəticəsidir ki, 2013-cü ilin noyabr ayından rayon mərkəzində Uşaq-Gənclər Şahmat Məktəbi üçün yeni binanın tikilməsinə başlanılıb. Bina zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Zirzəmi hissədə qazanxana, yeməkxana və sinif otaqları, ikinci mərtəbədə 4 sinif otağı, üçüncü mərtəbədə sinif otaqları ilə yanaşı, kompüter və müəllimlər otaqları yerləşir. Sonuncu mərtəbə isə oyun zalı və hakim otağı üçün nəzərdə tutulub. Hazırda burada inşaat işləri yekunlaşıb, son tamamlama işləri görülür.

Adıçəkilən obyektin yaxınlığında inşa edilən digər quruculuq ünvanı isə rayon Təhsil və Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Kəngərli Rayon şöbələri üçün tikilən inzibati binadır. İnşasına cari ilin aprel ayından başlanılan bu bina da zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsindən verilən məlumata görə, binanın zirzəmi hissəsində qazanxana, yeməkxana, anbar, qarderob, birinci və ikinci mərtəbələrdə müxtəliftəyinatlı inzibati otaqlar yerləşəcək. Sonuncu mərtəbə isə iclas zalı və digər iş otaqları üçün nəzərdə tutulub. Hazırda binanın birinci və ikinci mərtəbələrində hörgü, üçüncü mərtəbəsində isə beton-qəlib işləri aparılır.

Muxtar respublikamızda əhalinin fasiləsiz enerji ilə təmin olunması da prioritet məsələlərdəndir. Buna görə də elektrik şəbəkələrinin fəaliyyəti daim diqqətdə saxlanılır, onlar üçün hərtərəfli şərait yaradılır. Kəngərli Rayon Elektrik Şəbəkəsi üçün yeni inzibati binanın tikilməsi də bu qəbildəndir. Rayon mərkəzində yeni inşa olunan bu obyekt iki mərtəbədən ibarət olacaq. Birinci mərtəbədə anbar, qazanxana, yeməkxana və mərkəzi idarəetmə zalı, ikinci mərtəbədə isə iclas zalı, kompüter otağı və digər inzibati otaqlar yerləşəcək.

Kəngərli rayonunun quruculuq səhifələrində adı qeyd olunacaq digər ünvan isə rayonun ən böyük yaşayış məntəqəsi olan Qarabağlar kəndində yerləşir. Belə ki, 468 şagird yerlik Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin binası yenidən qurulur. Məktəb binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Obyektdə söküntü işləri başa çatdırılıb, daxildə suvaq işləri yekunlaşıb. Hazırda daxildə təchizat işləri aparılır, tavan üzlənir, pillələr yenidən qurulur. Binanın fasad hissəsində isə suvaq işləri davam etdirilir.

Müasir tələblər səviyyəsində qurulacaq məktəb binasında yeməkxana, idman zalı, sinif otaqları, fənn kabinələri, laboratoriya, kitabxana və sair müəllim və şagirdlərin ixtiyarına veriləcək.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsi tərəfindən tikintisi və yenidən qurulması davam etdirilən adıçəkilən obyektlərdə, əsasən, yerli tikinti materiallarından istifadə edilir. Yeri gəlmişkən, istifadə edilən yerli daş və sement məhsulları elə Kəngərli rayonu ərazisində istehsal olunur.

Bəli, muxtar respublikamızın ən gənc rayonu olan Kəngərli rayonunda həyata keçirilən bu quruculuq tədbirləri muxtar respublikamızın, eyni zamanda ölkəmizin sosial-iqtisadi inkişafının göstəricisidir. Adətən, xarici analitiklərin dilindən bu fikirləri tez-tez eşidirik: “Azərbaycan o ölkələrdəndir ki, dünyanın inkişaf etmiş ölkələrinin bir neçə on illər boyu keçdiyi yolu çox qısa bir zamanda – cəmi 20 ilə qət edə bilib”. Bu fikirlər həm də onun təsdiqidir ki, tikinti olan yerdə inkişaf var, tərəqqi var...

**Səbuhi HƏSƏNOV**

# “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi məhsullara tələbat artır

*Əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, məşğulluq probleminin əsaslı həlli, əhalinin rifah halının yaxşılaşdırılması Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindəndir. Kənd təsərrüfatında məhsul istehsalının stimullaşdırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi məqsədilə həyata keçirilən tədbirlər muxtar respublikanın iqtisadi mənzərəsinin dəyişməsində əhəmiyyətli rol oynayır. Bütün bunlar – iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi özəl sektorun inkişaf etməsinə şərait yaratmışdır. Bu isə Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payının 87 faiz olması ilə nəticələnmişdir.*



Muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bunun üçün daxili bazarın tələbatına uyğun yerli məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələr yaradılır. Belə müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Dövlət maliyyə dəstəyi ilə müəssisədə 2003-cü ildə çörək, 2004-cü ildə makaron və peçenye, 2005-ci ildə isə süd məhsulları istehsalı sahələri yaradılmışdır. Bu istehsal sahələrində Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücünün artırılması, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi məqsədilə Sahibkarlığa Kömək Fondundan 2008-ci ildə əlavə dövlət maliyyə dəstəyi göstərilmişdir. Bu vəsaitlə inzibati binada və yeməkxanada əsaslı təmir işləri aparılmış, müəssisə müasir avadanlıqlarla təmin edilmişdir. Eyni zamanda çörək sexində istehsal gücü saatda 3000 ədəd çörək olan tam avtomatik yeni xətt istifadəyə verilmişdir. Burada çörək dəmir üzərində deyil, daş üzərində bişirilir ki, bu da məhsulun daha keyfiyyətli istehsalı deməkdir. Daxili bazarın yüksəkkeyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına öz töhfəsini verən “Gəmiqaya Bərəkət Qida Məhsulları” MMC-də istehsal sahələri ilbəil genişləndirilir. Bu istiqamətdə işlər uğurla davam etdirilmiş, 2011-ci ildə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla Şərq şirniyyatları istehsalı sahəsi yaradılmış, 2012-ci ildə kəpəkli çörək istehsalına başlanılmışdır. İnsan sağlamlığı üçün vacib elementlərlə zəngin olan kəpəkli çörək yüksəkkeyfiyyətli qida məhsulu kimi alıcılar tərəfindən rəğbətlə qarşılanmışdır. Elə bunun nəticəsidir ki, satışa çıxarılan kəpəkli çörəyə tələbat get-gedə artmış, ötən dövr ərzində kəpəkli çörək istehsalına keçid tam təmin olunmuşdur.

Müəssisədə istehsal olunan digər məhsullar da alıcılar tərəfindən rəğbətlə qarşılanır. Makaron sexində istehsal edilən müxtəlif növdə keyfiyyətli makaron 350, 500 qramlıq, 10 kiloqramlıq kisələrdə, Şərq şirniyyatları istehsalı sexində hazırlanan Azərbaycan milli şirniyyatları – şəkərbura, Ordubad və Şəki paxlavaları, müxtəlif çeşidlərdə qatqat, şəkərçörək, milli şirin çörək, biskvit və digər unlu-qənnadı məmulatları nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılır.

Fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən xammal şəklində alınan süd məhsulları xüsusi maşınlarla müəssisəyə daşınıb laborator analizdən keçirildikdən sonra istehsala buraxılır. Süddən kərə yağı, pendir, qatıq və ayran istehsal olunur. Ayran 200, kərə yağı 250, 400 qramlıq, 1 və 4 kiloqramlıq, pendir isə 0,5, 1 kiloqramlıq plastik və 17 kiloqramlıq dəmir taralarda qablaşdırılır.

Sanitar-gigiyenik qaydalara ciddi əməl olunduğu müəssisədə müasir avadanlıqlarla təchiz olunmuş iki laboratoriya fəaliyyət göstərir. Müəssisəyə daxil olan xammal və ya hazır məhsul həmin laboratoriyada analizdən keçirildikdən sonra istehsala buraxılır və ya satışa çıxarılır.

İldən-ilə fəaliyyəti genişləndirilən müəssisədə çörək sexi 3, digər sexlər isə 1 növbəli iş rejimində fəaliyyət göstərir. Burada 200 nəfər çalışır.

Gələcəkdə müəssisədə istehsal olunan məhsulların Azərbaycanın digər regionlarında və xarici bazarlarda satışa çıxarılması nəzərdə tutulur. Bu məqsədlə kompleks tədbirlər həyata keçirilir.

“Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 9001-2008 və İSO 22000 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılmışdır.

Ayrı-ayrı ticarət obyektlərində alıcı və satıcıların bu yerli məhsullara olan münasibətini öyrəndik. Fərdi sahibkar Yalçın Qədimov: “Əvvəllər alıcılar xaricdə istehsal olunan ərzaq və qeyri-ərzaq məhsullarına üstünlük verirdilərsə, indi artıq muxtar respublikada istehsal olunan məhsullara üstünlük verilir. Yerli istehsal müəssisələri alıcıların rəğbətini qazanan keyfiyyətli məhsullar istehsal edərək rəqabətqabiliyyətli müəssisələrə çevrilmişlər”.

İstehlakçı Nərminə Vəliyeva: “Pensiyaçıyam. “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi Şərq şirniyyatları, kərə yağı, qatıq, ayran, makaron məhsullarının daimi alıcısıyam. Dadı, tamı ilə seçilən yerli məhsullar vaxtlı-vaxtında mağazalara çatdırılır”.

Fərdi sahibkar Qadir Əkbərov: “Heyvandarlıqla məşğul olan sahibkar kimi onu deyə bilərəm ki, son illər muxtar respublikamıza alınıb gətirilən və lizinq yolu ilə sahibkarlara verilən məhsuldar cins mal-qara ət və süd istehsalının artımına səbəb olmuşdur. Təbii ki, ət və südün emal olunması üçün yaradılmış müəssisələr sahibkarları alıcı problemi ilə üzləşdirmir. Yəni sahibkarın şəxsi istifadəsindən çox olan ət və süd “Gəmiqaya Bərəkət Qida Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinin tədarükçüləri tərəfindən gündəlik qəbul edilir. Bu həm istehsalçı, həm də istehlakçı üçün sərfəlidir”.

**Kərəm HƏSƏNOV**



Foto: Əsədulla SƏFƏROV

*Rəngini Ana Ağrı dağının zirvəsindəki qarlardan alan buludlar örtər səma üzünü. "Su" deyərək Tanrıya əl açan buğda zəmilərinə, çöllərə, düzlərə bir rəhmət olaraq göydən yağış göndərər Tanrı! Və o su hər şeyə can verər. Çünki su varlığın dörd başlanğıcından biri, sirrini çözə bilmədiyimiz ilahi nemətdir. Nemət isə, sadəcə, onu dəyərləndirənlərin, dəyərini bilənlərindir. Elə su da...*

# Su sərvətlərimizi qoruyaq

***Suyun insan üçün nə qədər vacib nemət olduğunu hər kəs yaxşı bilir. Canlı həyatın yaranması və yaşaması üçün torpaq və hava kimi, suyun da hansı dərəcədə əvəzedilməz olduğu bu qiymətli sərvətin çatışmadığı zamanlarda daha aydın görünür. İlk baxışda "lazımsız" bir ünsür kimi boş-boşuna axıb gedən suya bəzən elə vacib ehtiyac yaranır ki, onu ödəyə bilmək üçün xeyli vaxt və vəsait tələb olunur. Ona görə də insana lazım olan şirin su ehtiyatlarından düzgün istifadə etmək ən doğru seçimdir.***

Çox zaman suyu həyat mənbəyi, həyatın özü adlandırırlar. Lakin suyun təbiətdəki dövranı ilə yanaşı, şirin su ehtiyatlarından istifadə məsələləri də insanın mədəni tələbatlarının artması ilə mühüm əhəmiyyət kəsb edir. Suyun texniki, kənd təsərrüfatı və məişət məqsədləri üçün istifadəsi, ondan enerji alınması istiqamətində görülən işlər su ehtiyatlarından daha səmərəli istifadəni həmişə ön plana çəkir.



*Naxçıvan şəhərinin "Atabəylər" məhəlləsi*

Su və suyun qiyməti ilə bağlı yaranan fikirlər onun gündəlik istifadəsi ilə də əlaqəlidir. Suyun canlı orqanizm üçün əhəmiyyətini qeyd etsək də, aparılan araşdırmalar göstərir ki, sırf insan həyatı üçün, yəni içmək və ondan yemək hazırlamaq üçün sərf olunan su insanın özünə lazım olan ümumi su sərfinin 3-4 faizini aşmır. Yerdə qalan miqdar isə, əsasən, insanın digər məişət və mədəni tələbatlarının ödənilməsinə sərf olunur. Ona görə də sudan istifadəni azaldan daha yeni texnoloji avadanlıqların istehsalatda və məişətdə geniş yayılması su sərfiyyatını azaltsa da, ümumiyyətlə, planetdə gedən sürətli əhali artımı və qlobal istiləşmə kimi qarşısıalınmaz proseslər suya olan tələbatın gələcəkdə daha kəskin şəkil alacağını indidən proqnoz etməyə imkan verir.

Bəs su sarıdan bizdə vəziyyət necədir? Bu qiymətli sərvətin səmərəli istifadəsi ilə bağlı hansı işlər görülür? Axı daimi axar su elə bir təbii nemətdir ki, onu süni surətdə yaratmaq qeyri-mümkündür. Ona görə də Naxçıvan Muxtar Respublikasında şirin su qaynaqlarımızın qorunması, sudan daha qənaətli istifadənin tətbiq olunmasına ciddi fikir verilməkdədir. Bunun nəticəsidir ki, muxtar respublika sakinləri indiyə qədər su sarıdan korluq çəkməyiblər. Düzdür, muxtar respublikamızda su anbarlarının yaradılması və su təminatı infrastrukturunun yeniləşdirilməsi istiqamətində aparılan davamlı işlər yağıntının çox az ola biləcəyi illərdə belə, muxtar respublika əhalisinin su sarıdan korluq çəkməyəcəyinə zəmanət verir. Ancaq bu heç də o demək deyildir ki, istənilən halda su israfçılığına yol verilməli, suyun izafi sərfinə göz yumulmalıdır. Bu gün açıq qalmış su kranlarından gecə-gündüz axıb gedən sudan ötrü sabah yayın ortasında hansı əziyyətlərlə qarşılaşacağımızı təsəvvür etmək çətin deyil. Ona görə də təkcə Naxçıvan şəhərində deyil, muxtar respublikamızın bütün şəhər və kəndlərində sudan qənaətlə istifadə, su hövzələrinin, arx və kanalların təmizliyinə diqqət edilməsi müvafiq dövlət qurumları ilə yanaşı, hər bir sakinin vətəndaşlıq borcuna çevrilməlidir.

Su təsərrüfatı mürəkkəb sahədir. Bunu suyun ərazidə qeyri-bərabər paylanması, suyun bol olduğu yerlərdə əkinəyararlı torpaq sahələrinin azlığı və ya əksinə, əkinəyararlı torpaq sahələrinin bol olduğu yerlərdə suyun az olması ilə əlaqələndirmək mümkündür. Bundan əlavə, suyun çox böyük hidroenerji potensialı da suyun istifadəsi ilə bağlı məsələlərdə hökmən özünü büruzə verir. Belə ki, bu potensial məqsədyönlü, idarəolunan şəkildə istifadə edildikdə suvarma və elektrik enerjisi almaq üçün ən ucuz mənbə olsa da, nəzarətdən çıxdığı zaman dağıdıcı sel gücü kimi hansı fəsadlar törətməsi hər kəsə məlumdur. Ona görə də su təsərrüfatı dedikdə yüzlərlə, minlərlə kilometr məsafədən çəkilmiş yüksəktəzyiqli su kəmərləri, milyonlarla manata başa gələn bəndlər, mürəkkəb hidrotexniki və təmizləyici qurğular, suvarma şəbəkələrindən tutmuş evlərdəki su kranlarına, həyətlərdəki yaraşıqlı çarhovuzlara və bağ-bağçalardakı suçiləyənlərə qədər geniş şəbəkə nəzərdə tutulur. Bunların idarə olunması, sudan məqsədyönlü istifadədə hər kəsin üzərinə düşən vəzifəni yerinə yetirməsi isə ümumi su təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Başqa sözlə, vətəndaşlarımız günün istənilən saatında su kranını açıb təmiz, zərərsiz şirin sudan istifadə edə bilmək üçün çalışdığı kimi, yaşadığı məhəllədə gün boyu mənasız şəkildə axıb gedən suya da eyni dərəcədə etinasız qalmamalı, su kranlarından düzgün istifadə etməli, onları qorumalıdır.



*Naxçıvan şəhərinin "Qoçüstü" məhəllosi*



*Naxçıvan şəhərinin Əzizbəyov küçəsi*

***Naxçıvan şəhərində bir çoxumuzun gözünün öyrəşdiyi bu mənzərələrə baxanda düşünürsən ki, belə izafi şəkildə axıb gedərək ətrafını da bərbad hala salan su kranlarını bağlamaq nə qədər çətin işdir? Bəlkə, kimlərsə öz vəzifə borclarını unudub şəhərimizdə bəzi yerlərdə rast gəlinən belə mənzərələri görmək istəmir. Amma heç olmasa bircə gün axşamadək deyil, günortaya qədər su kəsintisi problemi ilə üzləşmiş hər kəs yaxşı bilir ki, buna qətiyyən yol vermək olmaz. Çünki bu, sadəcə, axıb gedən su deyildir, bu həm də beşinci mərtəbədəki evimizə öz təbii təzyiqi ilə qalxa bilən və ya qızmar bir yay günü hardasa gün altında susuz qala biləcək körpə fidanlara həyat verəcək sudur – onun hər damlası, hər litri çox qiymətlidir. Bu isə hamımızın bildiyi suyun özü qədər sadə bir həqiqətdir. Ona görə də gəlin sabahımız üçün su sərvətlərimizi hamılıqla qoruyaq!***

**Əli CABBAROV**

## Dövlət Sosial Müdafiə Fondu maarifləndirici tədbirləri davam etdirir

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun (DSMF) şöbələri tərəfindən maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilir. Növbəti maarifləndirici tədbir Naxçıvan Muxtar Respublikası DSMF-nin Şərur Rayon Şöbəsi tərəfindən Xanlıqlar kəndində keçirilmişdir. Tədbiri Şərur Rayon İcra Hakimiyyətinin İqtisadiyyat şöbəsinin aparıcı məsləhətçisi Asif Hüseynov açaraq tədbirin əhəmiyyətindən danışmışdır.***

Tədbirdə fondun Şərur Rayon Şöbəsinin müdiri Firuz Novruzov məcburi dövlət sosial sığortasının mahiyyəti və üstünlükləri, məcburi dövlət sosial sığorta haqlarının onlayn ödəmə sistemi vasitəsilə ödənilməsi, sığortaolunanların pensiya təminatı hüququ və onların fərdi uçot sistemi vasitəsilə əhatə olunması ilə bağlı məsələlər barədə torpaq mülkiyyətçilərinə geniş məlumat vermişdir.

Qeyd olunmuşdur ki, məcburi dövlət sosial sığortası "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa görə, bütün əmək müqaviləsi (kontraktı) üzrə işləyənlər barəsində həyata keçirilən sosial təminat formasıdır. Belə ki, işəgötürən tərəfindən əmək müqaviləsi ilə işə qəbul olunan hər bir işçi məcburi dövlət sosial sığortası ilə əhatə olunmaqla sığorta iştirakçısına çevrilir.

Vurğulanmışdır ki, qanunvericiliyə uyğun olaraq, müxtəlif fəaliyyət növləri üçün məcburi dövlət sosial sığorta haqları müəyyənləşdirilmişdir. Sosial sığortaya cəlb olunan şəxslər əgər öz fəaliyyətlərinə uyğun müəyyənləşdirilmiş məcburi dövlət sosial sığorta haqlarının vaxtlı-vaxtında ödənilməsini təmin edərlərsə, onda özlərini baş verə biləcək sosial sığorta hadisələrindən sığortalamış olacaqlar. Bunlara da pensiya yaşına çatmaq, əlil olmaq, ailə başçısını itirmək, əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləlik və uşağın anadan olması, uşağa qulluq daxildir. Qeyd olunmuşdur ki, məcburi dövlət sosial sığorta haqqı sığortaedənlər tərəfindən onlayn ödəmə sistemi vasitəsilə bankda nağd qaydada və ya internet vasitəsilə plastik kartlardan istifadə etməklə ödənilə bilər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## "İnam" musiqi qrupunun Ağbulaq İstirahət Mərkəzində istirahət edən uşaqlar qarşısında çıxışı

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"na uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud məktəbli uşaqların Ağbulaq İstirahət Mərkəzində istirahəti davam edir.



47 uşağın istirahətinin mənalı keçməsini təmin etmək məqsədilə tərtib olunmuş plana uyğun olaraq tədbirlər davam etdirilir. Bu istiqamətdə iyunun 5-də "Çərpələng" yarışı keçirilib. Qaliblərə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin fəxri fərmanları verilib.

Dünən mərkəzdə daha bir tədbir reallaşdırılıb. Belə ki, fiziki imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu uşaqlar qarşısında konsert proqramı ilə çıxış edib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları Məhərrəm Novruzova, atası **MÜTƏLLİM NOVRUZOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək,

Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Fərzəliyev və şuranın üzvlərindən Heydər Heydərov, Sultan İsmayılov, Əkbər Ağayev və Firudin Süleymanov veteran **MÜTƏLLİM NOVRUZOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 502